# mr. Selftop Flex®

## Sənaye müəssisələrinin döşəmələri üçün sement və akrilik əsaslı, iki komponentli, özlüyündən yayılan (self-leveling) döşəmə düzənləmə materialı

Məhsul kodu: 40.25.002 A Komp.
40.08.003 B Komp.




### Məhsul haqqında

**mr.Selftop Flex®** sement və akrilik əsaslı, iki komponentli, 4-8 mm qalınlıqda tətbiq olunan, düzgün səthli, aşınma müqaviməti yüksək, sənaye döşəmələri üçün uyğun olan, özlüyündə yayıla bilən (self levelling), polad lif tərkibli səth düzənləmə materialıdır.

### İstifadə sahələri

- Fabrik və anbar səthlərində
- Avtomobil dayanacaqları, qaraj və yollarda
- Balkon və terraslarda
- Yükləmə platformalarında
- Kauçuk təkərli maşın hərəkətlərinin olduğu yerlərdə
- Aşınmış və köhnəlmiş sənaye səthlərində örtükləmə üçün istifadə olunur

### Texniki göstəriciləri

| | |
|---|---|
| **Materialın tərkibi<br>mr.Selftop Flex® komponent A<br>mr.Selftop Flex® komponent B** | **Minerlar dolğulu, silis tüstüsü, polad lif və xüsusi sement tərkibli-<br>Kopolimer Akrilik dispersiya** |
| Rəngi | Boz |
| Qarışım sıxlığı | 1.93 kq\litr |
| Təzyiq müqaviməti<br>(7 gün)<br>(28 gün) | <br>13,0N/mm²<br>21,5N/mm² |
| Əyilmə müqaviməti (28 gün) | 8,8 N/mm² |
| Qopma müqaviməti (28 gün) | 2,0 N/mm² |
| Aşınma dayanımı<br>CS 17 diski(ağırlik itkisi)<br>H22 diski(ağırlıq itkisi) | <br>245 mq<br>301 mq |
| İstifadə müddəti | 30 dəqiqə |
| Tam bərkimə müddəti | 28 gün |

Yuxarıdakı qiymətlər +23⁰C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### Üstünlükləri

- Düzgün səthlidir
- Asan və sürətlə tətbiq olunur, ekonomikdir
- Aşınma və təzyiqə müqaviməti yüksəkdir
- Tozsuz, sağlam və uzun ömürlüdür
- Səthə mükəmməl aderans əmələ gətirir
- Mexaniki zərbə və temperatur dəyişmələrində təsirlənməz
- Donma və ərimə mərhələlərində davamlıdır

### İstifadə təlimatı

Səthin hazırlanması;

mr.Selftop Flex® qarışım nisbətinə görə istifadəyə hazır səthlər üçün hazır edilməlidir. mr.Selftop Flex® tətbiq olunacaq beton səthlərin keyfiyyəti, tip C20 ya da minimum 350 doza olmalı və səthlər ən azı 3 həftəlik olmalıdır. Səth betonunun qopma müqaviməti ən azı 1,5 N/mm², səth temperaturu ən azı +10⁰C olmalıdır. Səth suya yaxşıca doyurulmalı, amma səthdə su yığıntısı olmamalıdır. Səthin möhkəm, quru, təmiz, tozsuz və daşıyıcı olmasına diqqət edilməlidir. Səth, yapışmanı zəifl ədəcək bütün pas, qatı sürtgü yağı və parafin qalıqlarından təmizlənməli və səthdə artıq qırıntılar olmamalı. Səthdə əmələ gəlmiş köpük təbəqəsi almaz daşlama ilə təmizlənməli, əmələ gələn toz təbəqəsi sənayedə istifadə olunan süpürgələrlə süpürülməlidir. Mövcud səthlərdə var olan, 1 mm-dən geniş çatlar, 8 mm-dən dərin səth zədələri mr.Tamir® ilə təmir edilməlidir. İncə çatların təmiri edilməyə bilər.

### Hazırlanması

mr.Selftop Flex® B komponenti təmiz bir tətbiq qabına boşaldılır. mr.Selftop Flex® A komponenti yavaş-yavaş əlavə edilərək 400-600

dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, düyünlər həll olunana qədər qarışdırılır. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir.

## Qarışdırma nisbəti

1 kq mr.Selftop Flex A komp. üçün
0,32 kq B Komp.
25 kq mr. Selftop Flex A komp. üçün
8 kq B Komp.

## Sərfiyyat

1 mm qalınlıq əldə etmək üçün ~1,93 kq/m²

## Alətlərin təmizlənməsi

İstifadə edilən alət və ləvazimatlar su ilə təmizlənməlidir. mr. Selftop Flex® bərkidikdən sonra səthdən ancaq mexaniki şəkildə təmizlənə bilər.

## Saxlama şərtləri

mr.Selftop Flex® Komp. B 0°C aşağı tempraturda donar. Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır. Açılmış torbalar uyğun saxlama şərtlərində saxlanaraq bir həftə içində istifadə olunmalıdır.

## Saxlama müddəti

Düzgün saxlama şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: A Kompanent 25 kq ±2%**

**B Kompanent 8 kq ±2%**